UOT 3.33.

Mahir Mahmud oğlu MƏMMƏDOV
magistr,
Aytən Səfəralı qızı ZEYNALOVA
Elmi rəhbər, i.f.d. Azərbaycan Kooperasiya Universiteti
e-mail: leytenant-m@mail.ru
10.30546/1.72.2024.15

FOND BAZARLARINDA RƏQABƏT MÜHİTİ

Xülasə

Tədqiqatın məqsədi – müasir dövrdə fond bazarlarında formalaşan rəqabət mühiti və rəqabət münasibətləri nəzərdən keçirilmiş, bu mühitdə fond bazarlarının inkişaf istiqamətləri araşdırılmışdır.

Tədqiqatın metodologiyası – tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqli ümumiləşdirmələrdən və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqatın əsas nəticələri və irəli sürülən təkliflər fond bazarlarında azad rəqabətin inkişafı üzrə islahatların aparılmasında istifadə edilə bilər.

Tədqiqatın nəticələri – rəqabət parametrlərinin öyrənilməsi Azərbaycan fond bazarının inkişafında mühim amil kimi qiymətləndirilir, fond bazarlarında yeni rəqabət mühiti formalaşır və inkişaf edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Azərbaycanda fond bazarlarının fəaliyyət göstərməsi, qiymətli kağızlar vasitəsi ilə maliyyə resurslarının səfərbər edilməsi, toplanması və yenidən bölüşdürülməsinin səmərəliliyinin göstəriciləri araşdırılmış, rəqabət münasibətləri öyrənilmiş və fond bazarının peşəkar iştirakçıları arasında rəqabət parametrləri göstəriciləri tədqiq edilmişdir.

Açar sözlər: rəqabət mühiti, rəqabət parametrləri, peşəkar iştirakçılar, peşəkar təşkilatçılar, regional sərhədlər, milli sərhədlər, informasiya agentlikləri.

Giriş

Qloballaşan dünya iqtisadiyyatı fond bazarlarına da təsirsiz ötüşmür. Qloballaşmanın təsirinə məruz qalan fond bazarlarında yeni rəqabət mühiti formalaşır. Fond bazarlarının müasir vəziyyətində yaranan rəqabət münasibətləri öz rəqabət parametrləri kimi spesifik xüsusiyyət daşıyır. Fond bazarının peşəkar iştirakçıları, fond bazarında ticarətin təşkilatçıları və fond bazarında fəaliyyət göstərən informasiya agentlikləri arasında baş verən rəqabət mühitində rəqabət parametrlərinə görə daha sağlam olan iştirakçı bazarda xalis mənfəətlə fəaliyyət göstərə bilir. Fond bazarlarında sağlam rəqabət mühitinin formalaşdırılması hər bir dövlətin prioritet siyasətini təşkil etməlidir. Çünki, fond bazarları makroiqtisadi sabitliyin təmin edilməsində əsas həlqəni təşkil edir. [5, s. 249]

Rəqabət anlayışı

Fond bazarları bazar iqtisadiyyatının digər strukturları kimi onun iştirakçıları arasında rəqabət münasibətlərinin olması ilə xarakterizə olunur. Rəqabət bazar subyektləri arasında sahibkarlıq fəaliyyətinin ən əlverişli şərtləri uğrunda mübarizənin elə formasıdır ki, bu zaman onların müstəqil fəaliyyəti hər birinin bazarda əmtəə (məhsul, iş, xidmət) dövriyyəsinin ümumi vəziyyətinə təsir etmək imkanını əsaslı surətdə məhdudlaşdırır və istehlakçıya lazım olan əmtəələrin istehsalını stimullaşdırır [2, fəsil I, maddə 1]. Klassik iqtisadiyyatın banisi A.Smit rəqabəti ən əlverişli alqı-satqı şərtləri uğrunda satıcılar və alıcılar arasında rəqabət kimi qiymətləndirərək, bazarı hərəkətə gətirən "gizli əl" adlandırmışdı [6]. İ.Şumpeter isə rəqabət anlayışına köhnə və yeni arasında baş verən rəqabət münasibətləri kimi baxırdı.

Rəqabət özünü müxtəlif formalarda göstərə bilər. Bu formalar məhsulun unikal xassələrinin formalaşması uğrunda, keyfiyyətin yüksəldilməsi uğrunda, uğurlu qiymət siyasəti uğrunda və digər formalarda özünü göstərə bilər. Həmçinin, rəqabət ədalətli və ədalətsiz mühitdə aparıla bilər. Ədalətli rəqabət məfhumu adı altında rəqiblərlə münasibətlərin hüquqi və etik standartları başa

düşülməlidir. Haqsız rəqabət dedikdə isə müxtəlif növ casusluq, mütəxəssis brokonerliyi, rəqib işçilərin müxtəlif yollarla, o cümlədən rüşvət verməklə satın alınması, yalançı reklamlar, bazarda rəqiblər haqqında yalançı, həqiqətə uyğun olmayan məlumatların yayılması və digər hallar başa düşülür.

Ölkəmizdə rəqabət mühitini tənzimləmək üçün “Haqsız rəqabət haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunda haqsız rəqabətin formaları aşağıdakı kimi təsnifləşdirilib:

- ✓ rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;
- ✓ rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;
- ✓ rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;
- ✓ haqsız sahibkarlıq fəaliyyəti;
- ✓ haqsız işgüzarlıq davranışı;
- ✓ istehlakçıların çaşdırılması [2, fəsil II, maddə 3].

Azərbaycan Respublikasında haqsız rəqabət haqqında qanunvericiliyin icrasına antiinhisar siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı və qanunvericilikdə nəzərdə tutulan digər orqanlar öz səlahiyyətləri çərçivəsində nəzarət edirlər. 15 may 2015-ci ildə qəbul edilmiş 1284-IVQ № li “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda qiymətli kağızlar haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur. [1, fəsil XI, maddə 90]. Həmçinin, “Haqsız Rəqabət haqqında” Azərbaycan Respublikasının Qanununda qanun pozulmasına görə maliyyə sanksiyaları, haqsız rəqabətə görə məsuliyyət, qanunsuz əldə olunan mənfəətin geri alınması və vurulmuş zərərin ödənilməsi kimi məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur [2, fəsil III, maddə 12,13,14].

Fond bazarlarında rəqabət münasibətləri

Fond bazarlarında rəqabət münasibətlərini nəzərdən keçirərkən fond bazarlarında qiymətli kağızlarda xidmət göstərən bu bazarın peşəkar iştirakçıları arasında bazar münasibətləri başa düşülməlidir. Bu münasibətlər fond bazarlarının aşağıdakı peşəkar iştirakçıları arasında baş verir:

- brokerlik;
- diler fəaliyyəti;
- qiymətli kağızların idarə edilməsi fəaliyyəti;
- qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə klirinq fəaliyyəti;
- depozitar fəaliyyət;
- qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət;
- fond bazarlarında ticarətin təşkili üzrə fəaliyyət.

Fond bazarlarında informasiya xidmətlərinin xüsusi əhəmiyyətini nəzərə alaraq sadalanan fəaliyyət növlərinə informasiya fəaliyyətini də əlavə etmək olar. İnkişaf etmiş fond bazarlarında informasiya agentlikləri peşəkarlıqla fəaliyyət göstərir.

Sadalanan peşəkar iştirakçılar arasında sağlam rəqabət mühitinin formalaşması üçün qanunvericiliklə bəzi məhdudiyyətlər tətbiq edilir. Məsələni bir daha aydınlaşdırmaq üçün belə bir sual yarana bilər. Eyni hüquqi şəxs birləşmiş lisenziya almaqla həm broker, həm də diler fəaliyyəti ilə məşğul ola bilərmi?

Dünya təcrübəsi göstərir ki, eyni hüquqi şəxs fond bazarlarında bir neçə peşəkar fəaliyyət növləri ilə məşğul olduqda investisiya təsisatlarının maraqlarının toqquşması və qeyri-etik durumun yaranması ehtimalı daha da yüksəlir. Bu da fond bazarlarında rəqabət münasibətlərinə xələl gətirə bilər. Həmçinin, belə fəaliyyət növləri fond bazarlarında investisiya təsisatlarının ixtisaslaşmasına mənfi təsir göstərə bilər. Fond bazarlarında broker, diler, qiymətli kağızların idarə edilməsi üzrə, depozitar, qiymətli kağızların reyestrinin aparılması üzrə, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə klirinq, fond bazarlarında ticarətin təşkil edilməsi üzrə fəaliyyət növləri ilə eyni zamanda məşğul olmasına məhdudiyyətlər üzrə tələblər müəyyən edilir. Bu məhdudiyyətlər aşağıdakılardan ibarətdir:

- ❖ Broker fəaliyyətinin diler, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət növlərindən başqa, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni vaxtda həyata keçirilməsinə yol verilmir;
- ❖ Diler fəaliyyətinin broker, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir;
- ❖ Qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyətin diler, broker (qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyətlə məşğul olan fiziki şəxslərdən yalnız broker) fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir;
- ❖ Qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyətin (klirinq), depozitari və qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir;
- ❖ Fond bazarlarında ticarətin təşkili üzrə fəaliyyətin qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir;
- ❖ Fond birjası, depozitar fəaliyyəti və qarşılıqlı öhdəliklərin müəyyən edilməsi fəaliyyəti (klirinq) istisna olmaqla, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə məşğul ola bilməz;
- ❖ Depozitari fəaliyyətinin, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyət (klirinq) və qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət növlərindən başqa, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir;
- ❖ Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətinin, depozitari, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə (klirinq) fəaliyyət növlərindən başqa, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir [4, s.169].

Göründüyü kimi, sadalanan məhdudiyyətlər fond bazarlarında sağlam rəqabət mühitinin formalaşmasını təmin edir. Broker fəaliyyəti, diler fəaliyyəti və qiymətli kağızların idarə edilməsi fəaliyyəti adətən fond bazarının peşəkar iştirakçıları tərəfindən birləşdirilir. Çünki, sadalanan bu peşəkar xidmət növləri adətən istehsal baxımından bir-birini əvəz edə bilir. İstehsal güclərinin bir xidmət növündən digərinə keçməsi üçün heç bir texnoloji maneə olmur. Dünya təcrübəsi göstərir ki, sadalanan xidmət növləri (broker, diler, qiymətli kağızların idarə edilməsi fəaliyyəti) ilə məşğul olan bazar iştirakçıları özlərinin həm ticarət, həm hesablaşmalar, həm də analitik tətqiqatları həyata keçirən bölmələrini yaradır. Məsələn, broker və diler firmaları öz müştərilərinə məsləhət xidmətləri göstərir.

Fond bazarı iştirakçıları

Fond bazarlarında isə rəqabət mühiti özünün spesifik xüsusiyyətləri ilə fərqlənir. Belə ki, fond bazarlarında rəqabət mühitini təsnifləşdirsək aşağıdakı fond bazarı iştirakçıları arasında rəqabət münasibətlərini görərik:

- ➢ qiymətli kağızlarla ticarətin iştirakçıları;
- ➢ qiymətli kağızlarla ticarətin təşkilatçıları;
- ➢ depozitarilər;
- ➢ qeydiyyatçılar;
- ➢ fond bazarlarının məlumat agentlikləri və s.

Qiymətli kağızlarla ticarətin iştirakçılarının müştəriləri əhali, xarici investorlar və institusional investorlardır. Həmçinin, kommersiya bankları, sığorta şirkətləri, pay fondları, qeyri-dövlət pensiya fondlarını da bu kateqoriyaya aid etmək olar. Qiymətli kağızlarla ticarətin iştirakçıları arasında rəqabət onların hər birinin investorları bu iştirakçıların hər birinin xidmətlərindən istifdə etməyə inandırmaq qabiliyyətindən ibarətdir. Qiymətli kağızlarla ticarətin iştirakçılarının xidmətləri bazarının coğrafi sərhədləri regionun və ya ölkənin sərhədləri ilə üst-üstə düşür. Əgər fond bazarlarında qloballaşma inkişaf edirsə çox vaxt bu sərhədlər yox olur. Regional sərhədlərin olması

yalnız fond bazarı inkişaf etməmiş ölkələrə xasdır. Fond bazarlarında artan qloballaşma sayəsində milli sərhədlər tədricən yox olur. Azərbaycan Respublikası qanunvericilikləri əsasında qiymətli kağızlarla ticarət iştirakçılarının xidmət bazarına daxil olmaq üçün bəzi məhdudiyyətlər qoyulur. Məsələn, şirkətin sertifikatlı mütəxəssislərinin sayı, şirkətin nizamnamə kapitalının ölçüsü (broker və diler şirkətləri üçün nizamnamə kapitalının minumum ölçüsü 300000 (üç yüz min) AZN) [3, maddə 2.5] və s. Qiymətli kağızlarla ticarət iştirakçıları icraçı şirkət seçərkən istehlakçılar əsasən dörd qrup xidmət parametrlərinə fikir verməlidir:

a) qiymət;
b) rahatlıq;
c) şirkətin bazarda peşəkarlıq səviyyəsi;
d) tam uğursuzluq riski.

Qiymət parametri dedikdə, komissiyanın ölçüsünü müəyyən etmək üçün əsas məbləğin növü başa düşülür (broker və diler xidmətləri üçün bu parametr əməliyyatların məbləği, baza məbləğinin ölçüsündən asılı olaraq komissiyanın müəyyən edilməsi metodologiyası və s.).

Rahatlıq parametri dedikdə, qiymətli kağızların ticarət iştirakçısının əməliyyatlar apardığı qiymətli kağızların çoxçeşidli olması başa düşülür. Bu çeşidlərə minimum sifariş ölçüsü, alqı-satqı üçün sifarişin təqdim olunmasının zəruri olduğu müddət, müqavilənin minimum və maksimum müddəti, ilkin və sonrakı depozitlərin minimum məbləğləri daxildir.

Peşəkarlıq parametri dedikdə, xidmətləri istehsal edən şirkətin sabit qiymət parametrləri və rahatlıq parametrləri ilə müştərilərə maksimum fayda təmin etmək qabiliyyəti başa düşülür. Broker və diler xidmətləri üçün bu parametr qiymətli kağızların müvafiq olaraq minimum və maksimum qiymətə alqı-satqısı və qiymətli kağızları idarə edərkən idarə etməyə verilmiş pul vəsaitlərinin maksimum gəlirliyi təmin etməsi başa düşülür.

Tam uğursuzluq riski dedikdə, qiymətli kağızların ticarət iştirakçı tərəfindən təklif olunan xidmətlərin və xidmət istehsal edən şirkətin üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirməsi başa düşülür.

Sadalanan xidmət parametrlərinin inkişaf etmiş fond bazarlarında informasiya agentlikləri tərəfindən tez-tez peşəkarlıq reytinqləri ictimaiyyətə təqdim olunur. İnvestorlar da bu parametr göstəricilərinə əsasən bazarda öz şirkətlərini seçirlər. Nəticədə fond bazarlarında fəaliyyət göstərən informasiya agentlikləri arasında da rəqabət yaranır. Dünya fond bazarlarında fəaliyyət göstərən nəhəng informasiya agentlikləri Bulleterg, K.eCherŞ, Pompones, Prime-Tass, İnterfax, Azərbaycan fond bazarlarında isə marja, banco, invest-az və s.-dir.

Qiymətli kağızlarla ticarət təşkilatçılarının xidmətlərinin coğrafi sərhədləri onların növündən asılı olaraq dəyişir. Qiymətli kağızlarla ticarət təşkilatçıları dedikdə, birjalar, birja mağazaları və birjadankənar ticarət sistemi başa düşülür. Deməli, qiymətli kağızlarla ticarətin təşkilatçıları fond bazarlarının təkrar bazarında fəaliyyət göstərir. Birjalar üçün sabit ticarət platformasının olması səbəbindən birja bazarlarının coğrafi sərhədi regionun sərhədlərindən kənara çıxmır. Azərbaycan Respublikasında qiymətli kağızlarla ticarət təşkilatçılarının xidmətləri qanunla tənzimlənir. Belə ki, qiymətli kağızlar bazarında ticarət təşkilatçıların xidmətləri bazarına daxil olmaq üçün şirkətin sertifikatlı mütəxəssislərinin sayına və şirkətin nizamnamə kapitalının ölçüsünə bəzi məhdudiyyətlər qoyulmuşdur (Bakı Fond Birjasının nizamnamə kapitalı 5040000 [7].

Qiymətli kağızların ticarət təşkilatçıları tərəfindən qiymətli kağızların ticarət iştirakçısına göstərilən xidmət parametrləri dörd qurupa bölünür:

a) qiymət;
b) hərracların təşkil edildiyi qiymətli kağızların siyahısı;
c) əməliyyatlar üzrə öhdəliklərin qarşı tərəf tərəfindən yerinə yetirilməsi riski;
d) rahatlıq.

Qiymət parametrləri dedikdə, qiymətli kağızların ticarət iştirakçısı üçün fond bazarlarında xidmət istehsal edən ticarət təşkilatçılarının xidmətlərinin qiyməti, ticarət yerinin təşkili ilə bağlı xərclər, o cümlədən rabitə sisteminin fəaliyyəti və inkişafı üçün ödənişlər (birjadankənar ticarət

sistemi nəzərdə tutulur) və əməliyyat hesablama sisteminin xərcləri nəzərdə tutulur.

Hərracların təşkil etdiyi qiymətli kağızların siyahısı parametri dedikdə, ticarət təşkilatçısının (birja və birjadankənar təşkilatçılar) qiymətli kağızlar bazarında alqı-satqı etdiyi qiymətli kağızların siyahısı nəzərdə tutulur.

Əməliyyatlar üzrə öhdəliklərin qarşı tərəfdən yerinə yetirilmə riski parametri dedikdə, qiymətli kağızın alıcısı üçün qiymətli kağızın ona vaxtında çatdırılması riski, qiymətli kağızın satıcısı üçün isə qiymətli kağızların vaxtında ödənilməsi riski başa düşülür. Birjada pul və qiymətli kağızlarla əməliyyatlar aparılarkən əvvəlcədən depozit qoyulur və hesablaşmalar hərracın təşkilatçıları tərəfindən həyata keçirilir. Buna görə də birja əqd üzrə öhdəliklərin yerinə yetirilməsinə zəmanət verən qurum kimi çıxış edir.

Qiymətli kağızlar bazarında ticarət təşkilatçılarının xidmətinin rahatlıq parametri dedikdə, təqdim edilən qiymətli kağızların likvidliyi başa düşülür.

Fond bazarları inkişaf etmiş ölkələrdə qiymətli kağızlar bazarı ticarət təşkilatçıları regional, milli və qlobal şəkildə fəaliyyət göstərir. Ənənəvi olaraq birjalar qiymətli kağızların alqı-satqısı üzrə əməliyyatları təşkil edən və müntəzəm olaraq həyata keçirən ixtisaslaşmış birjalardır. Birjalar yalnız öz üzvləri arasında ticarət təşkil edir. Birja üzvləri və onların xidmətlərinin istehlakçıları qiymətli kağızlar ticarətinin iştirakçılarıdır. Birjalar qiymətli kağızların birjadankənar ticarət sistemləri ilə rəqabət aparır. Regional birjalar və birja mağazaları arasında, milli, qlobal birja və birjadankənar ticarət mərkəzləri arasında rəqabət mühiti formalaşır və inkişaf edir.

Depozitari xidmətinin iştirakçıları qiymətli kağızların ticarət iştirakçılarıdır və onlar öz müştəriləri üçün qiymətli kağızların alqı-satqı əməliyyatlarını təkcə özləri deyil, həm də bütün sonrakı əlaqəli hesablaşmaları həyata keçirirlər. Depozitarilər öz müştərilərinə qiymətli kağız sertifikatlarının saxlanılması və onlara mülkiyyət hüququnun uçotu və ötürülməsi üzrə xidmətlər göstərirlər. Depozitar xidməti iştirakçılarının üstünlüklərini müəyyən edən xidmət parametrlərini iki qrupa ayırmaq olar:

a) qiymət;
b) rahatlıq.

Depozitar xidmətinin qiymət parametri dedikdə, depozitari tərəfindən göstərilən ayrı-ayrı əməliyyatların qiymətlərinin məcmusu başa düşülür. Depozitari tərəfindən göstərilən xidmətlər qiymətli kağızların depozitə qoyulması üçün hesabın açılıb-bağlanması, qiymətli kağızların hesaba kreditləşdirilməsi, mülkiyyət hüquqlarının yenidən rəsmiləşdirilməsi zamanı qiymətli kağızların depozitardaxili və ya depozitlərarası köçürülməsi, hesabdan çıxarışlar, qiymətli kağızlar üzrə gəlirlərin ödənilməsi (dividentlər, kuponlar) qiymət parametrini müəyyən edən göstəricilərdir.

Depozitari xidmətinin rahatlıq parametri dedikdə, xidmət göstərmənin icra sürəti, depozitarilərin əlçatanlıq meyarları başa düşülür. Depozitarilərin əlçatanlıq meyarı onun xidmətlər bazarının coğrafi sərhədlərini müəyyən edir. Məsələn, bir neçə regional qiymətli kağız ticarət mərkəzlərinə bölünən inkişaf etmiş fond bazarlarında depozitar xidmət bazarlarının sərhədləri bu regionların sərhədləri ilə üst-üstə düşür. Belə inkişaf etmiş bazarlarda regionlararası depozitar xidmətləri arasında rəqabət münasibətləri inkişaf edir. Azərbaycanda regional bazarlar olmadığından regional depozitarilər də fəaliyyət göstərmir. Bu, Azərbaycanda fond bazarlarının yeni yaranmasının hələ tam inkişaf etməməsi ilə əlaqədardır.

Qeydiyyatçılar və ya reyestr saxlayıcıları xidmətinin iştirakçıları qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə göstəricilərin toplanması, qeydə alınması, işlənməsi, saxlanması və verilməsi əməliyyatlarını həyata keçirən hüquqi şəxsdir. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması fəaliyyəti qiymətli kağız sahiblərinin reyestrinin aparılması sistemini təşkil edən məlumatların toplanılması, təsbiti, emalı, saxlanılması və təqdim edilməsindən ibarətdir. Reyestrin aparılması üçün emitent yalnız bir qeydiyyatçı ilə müqavilə bağlaya bilər. Ancaq qeydiyyatçı istənilən sayda emitentlərin qiymətli kağız sahiblərinin reyestrini apara bilər. Qeydiyyatçı xidmətinin iştirakçıları depozitarilər digər tərəfdən də fond bazarının peşəkar iştirakçısı olmayan qiymətli kağızların emitentləridir. Qeydiyyatçıların gəlirlərinin böyük hissəsinin depozitarilər tərəfindən

göstərilən xidmətlərin ödənişindən ibarət olmasına baxmayaraq, qeydiyyatçılar heç bir şəkildə depozitarilərdən asılı deyillər. Qeydiyyatçı xidmətləri bazarının coğrafi sərhədləri regionun, ölkənin sərhədləri ilə üst-üstə düşür. Belə ki, qeydiyyatçının yerləşdiyi yer bir qayda olaraq onun reyestrini apardığı qiymətli kağızı buraxan şirkətin yeri ilə üst-üstə düşür. Qeydiyyatçılar tərəfindən depozitariyə göstərilən xidmətin parametrlərini üç qrupa bölmək olar:

a) qiymət;
b) reyestri aparılan qiymətli kağızların çeşidi;
c) rahatlıq.

Qiymət parametri dedikdə, qeydiyyatçı xidmətinin göstərilməsi zamanı həyata keçirilən fərdi hesabın açılması, qiymətli kağıza mülkiyyət hüququnun qeydiyyata alınması və bir sıra texnoloji və informasiya əməliyyatlarının qiymətləri başa düşülməlidir.

Reyestri aparılan qiymətli kağızların çeşidi onun müştəri bazasını müəyyən edir. Buraya yalnız bu qiymətli kağızların sertifikatlarını saxlayan depozitarilər aiddir.

Qeydiyyatçı xidmətinin rahatlığı depozitar xidmətinin rahatlığı ilə eyni parametrlərlə ölçülür. Yəni xidmətin sürəti və qeydiyyatçının özünün mövcudluğu həm də qiymətli kağızların likvidliyinin artırılması zərurəti ilə bağlıdır. İnkişaf etmiş nəhəng fond bazarlarında depozitari və qeydiyyatçı xidmətlərinin rahatlıq reytinqi peşəkər informasiya agentlikləri tərəfindən tez-tez ictimaiyyətə təqdim edilir.

Fond bazarlarında məlumat agentlikləri xidmətinin iştirakçıları dedikdə, qiymətli kağızlar ticarət iştirakçılarına fond bazarının vəziyyəti, fond bazarının tənzimlənmə sisteminin vəziyyəti, fond bazarının peşəkar iştirakçılarının göstərdiyi xidmət parametrlərinin dinamikası, qiymətli kağızların emitentləri haqqında məlumatların toplanılması, sistemləşdirilməsi və təmin edilməsi üzrə fəaliyyət mexanizmi başa düşülməlidir.

Fond bazarları haqqında məlumat agentlikləri arasında regional, milli və beynəlxalq təsnifləşmə var. Fond bazarları haqqında məlumat agentlikləri arasında ən böyük beynəlxalq agentliklər Bulleterg, Pompones, K.eCherS, Prime-TASS, İnterfax-dır.

Fond bazarlarının məlumat agentlikləri xidmətinin iştirakçıları göstərilən xidmətin parametrləri üzrə dörd qrupa bölünür:

a) qiymət;
b) xidmət göstərilməsinin səmərəliliyi;
c) tam həcmdə xidmət göstərilməməsi riski;
d) rahatlıq.

Fond bazarlarının məlumat agentlikləri xidmətləri iştirakçılarının qiymət parametri dedikdə, məlumatların toplanılması, ümumiləşdirilməsi və təqdim edilməsi xərcləri başa düşülməlidir. Qiymət parametrində məlumatların toplanılması xərcləri daha böyükdür. Çünki, məlumatların əksəriyyəti ictimaiyyət üçün qapalıdır.

Fond bazarlarında məlumat agentlikləri xidmətləri iştirakçılarının xidmət göstərilməsinin səmərəliliyi parametri dedikdə, qiymətli kağızların ticarət iştirakçısının birdəfəlik sorğusuna cavab verilərkən sorğunun alındığı andan cavabın göndərildiyi vaxt arasında fond bazarlarında hər hansı bir hadisənin baş verməsi ilə bu barədə müştəriyə vaxtında məlumat verilməsi arasındakı müddət başa düşülür.

Fond bazarlarının məlumat agentlikləri iştirakçılarının tam həcmdə xidmət göstərilməməsi riski parametri dedikdə, təqdim edilən məlumatların natamam olması və ya onun etibarsızlığı başa düşülməlidir. Məlumatların yarımçıq və ya etibarsız olması qiymətli kağızlarla ticarətin iştirakçısına reallıq haqqında müvafiq hesabat tərtib etməyə imkan verməyə bilər.

Fond bazarlarının məlumat agentlikləri xidmətləri iştirakçılarının rahatlıq parametri dedikdə, qiymətli kağızlarla ticarətin iştirakçılarına məlumatların əlçatanlığı başa düşülməlidir. Verilən məlumatların rahatlıq parametrlərinin spesifik cəhəti məlumatların təşkili və fasiləsiz informasiya axınını təmin edən yüksək texnoloji rabitə sisteminin olmasıdır. Məlumatların təşkili verilən məlumatların sürətli qavranılmasına şərait yaratmalı və məlumatın ən əhəmiyyətli hissəsi kiçik məlumatların kölgə-

sində itməməlidir. Yüksək texnoloji rabitə sistemi fasiləsiz informasiya axınını təmin etməli, həmçinin informasiya qəbul vasitələri informasiyanı ən münasib şəkildə təkrar istehsal etməlidir.

Fond bazarlarının məlumat agentlikləri xidmətləri iştirakçılarının xidmətləri onların təqdim edilməsinin operativliyi meyarına görə iki qrupa bölünür:

1) Operativ informasiya təminatçılarına (real vaxt rejimində);
2) Qeyri-əməliyyat məlumat təminatçıları.

Operativ informasiya təminatçılarına Bloomerg, Reshegz, Goopes, Tetrate, Prime-TASS, AK&M, İnterfax və Finmarket informasiya agentlikləri, qeyri-əməliyyat məlumat təminatçılarına isə Skate-Press, Expert, Sobolev və Kommersant informasiya agentlikləri aiddir.

Nəticə

Azərbaycan Respublikasında fond bazarlarında informasiya agentlikləri bazarı hələ tam formalaşmamışdır. Bu sahədə əsas informasiya təminatının inkişaf istiqamətləri üzrə islahatlar aparılmalıdır. Bu islahatlar əsasən aşağıdakı istiqamətdə aparılmalıdır:

1. Fond bazarı iştirakçıları tərəfindən açıqlanmalı olan informasiyanın minimal həcmini müəyyən etməklə dərc olunmaların həcminin genişləndirilməsi;
2. Emitentlərin qiymətli kağız məzənnələrinə təsir edə bilən istənilən fəaliyyət faktlarının məcburi dərc olunması;
3. Müstəqil reytinq agentlikləri şəbəkəsinin yaradılması və qiymətli kağız emitentlərinin reytinq qiymətləndirilməsinin tətbiqi;
4. Makroiqtisadi və mikroiqtisadi hesabatların geniş dərc olunması;
5. Kommersiya sirrinə aid olan və aid olmayan informasiyaların dəqiq fərqləndirilməsi;
6. Fond bazarlarının ayrı-ayrı strukturlarını səciyyələndirən ixtisaslaşmış nəşrlər şəbəkəsinin inkişaf etdirilməsi;
7. Fond bazarlarındakı mövcud durumu qiymətləndirən göstəricilərin vahid sisteminin yaradılması.

Beləliklə, fond bazarlarının peşəkar iştirakçıları olan şirkətlərin bütün seçilmiş sektorlarında təklif olunan xidmətlərin yuxarıda təsvir edilən fərqli inkişafı nəticəsində yeni rəqabət mühiti formalaşır və rəqabət mühitində fond bazarları fərqli inkişaf edir.

ƏDƏBİYYAT

1. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı, 15 may 2015-ci il.
2. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı, 2 iyun 1995-ci il.
3. **"**Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin nizamnamə kapitalının minimum miqdarı və onun formalaşdırılması haqqında" Qaydalar. 29 sentyabr 2015-ci il.
4. A.Kərimov, A. Babayev. "Qiymətli kağızlar bazarı". Dərslik. Bakı, 2003.
5. B.Ataşov. "Maliyyə bazarları". Dərslik. Bakı, 2016.
6. A.Smith. "Əxlaqi hisslər nəzəriyyəsi" Dərslik. 1759.
7. www.bfb.az Bakı fond birjasının saytı.

Махир Махмуд оглы Мамедов
магистр
Айтен Сафарали кызы Зейналова
научный руководитель: k.э.н.
Азербайджанский Университет Кооперации
e-mail: leytenant-m@mail.ru

Конкурентная среда на фондовых рынках

Резюме

Цель исследования. Проведен обзор конкурентной среды и конкурентных отношений, сложившихся на фондовых рынках в современную эпоху, исследованы направления развития фондовых рынков в этой среде.

Методология исследования. В исследовательской работе использовались различные подходы, логические обобщения и другие методы.

Применение исследования. Основные результаты исследования и предложенные предложения могут быть использованы при проведении реформ по развитию информационного обеспечения на фондовых рынках.

Результаты исследования. Исследование параметров конкуренции рассматривается как важный фактор развития фондового рынка Азербайджана, на фондовых рынках формируется и развивается новая конкурентная среда.

Оригинальность и научная новизна исследования. Исследована деятельность фондовых рынков в Азербайджане, показатели эффективности мобилизации, сбора и перераспределения финансовых ресурсов через ценные бумаги, изучены конкурентные отношения, а также параметры конкуренции между профессиональными участниками фондового рынка.

Ключевые слова: конкурентная среда, конкурентные параметры, профессиональные участники, профессиональные организаторы, региональные границы, национальные границы, информационные агентства.

Mahir Mahmud Mammadov
master
Ayten Safarali Zeynalova
Scientific director: PhD in Economics
Azerbaijan Cooperation University
e-mail: leytenant-m@mail.ru

Competitive environment in stock markets

Summary

The purpose of the research. A review of the competitive environment and competitive relations formed in the stock markets in the modern era, the directions of development of the stock markets in this environment were investigated.

Research methodology. Various approaches, logical generalizations and other methods were used in the research work.

Application of the research. The main results of the research and the proposed proposals can be used in carrying out reforms on the development of information provision in the stock markets.

The results of the investigation. Results of the study. The study of competition parameters is considered as an important factor in the development of the stock market of Azerbaijan, a new competitive environment is formed and developed in the stock markets.

Originality and scientific innovation of the research. The performance of stock markets in Azerbaijan, the indicators of the efficiency of the mobilization, collection and redistribution of financial resources through securities were investigated, competitive relations were studied, and the parameters of competition between professional participants of the stock market were studied.

Key words: competitive environment, competitive parameters, professional participants, professional organizers, regional borders, national borders, information agencies.